# Millətin uğur tarixinin yaradıcısı

**Hər bir xalqın taleyində unudulmaz şəxsiyyətlər olur ki, onlar təkcə tarix yaratmır, həm də gələcəyi yönləndirirlər. Azərbaycan xalqı üçün Ümummilli Lider Heydər Əliyev və onun layiqli davamçısı Prezident İlham Əliyev məhz belə şəxsiyyətlərdəndir. Onlar yalnız dövlət qurmaqla kifayətlənməyiblər, həm də dövlət-xalq birliyinin möhtəşəm modelini yaradıblar.**

Heydər Əliyev Azərbaycanı ən ağır sınaqlardan keçirib, onun müstəqilliyini qoruyub və dövlətçilik ənənələrini yaradıb. Onun rəhbərliyi dövründə yaradılan möhkəm siyasi və iqtisadi əsaslar bu gün Azərbaycanın uğurlarının təməlini təşkil edir. Heydər Əliyevin ideyaları, xalqla birliyi onun siyasətinin ən böyük dəyəri idi.

…1993-cü ilin sərt qış aylarında Naxçıvanın çətinliklər içində boğulduğu vaxt Heydər Əliyevin 16 yaşlı məktəbli qızın - bu sətirlərin müəllifinin məktubuna cavab olaraq onu qəbul etməsi sadəcə bir liderin deyil, bir atanın mərhəmətini və millətinə olan sevgisini göstərirdi. Həmin görüşdə Ulu Öndərin soyuq otaqda, sadə şəraitdə xalq üçün çalışması, hər bir vətəndaşa ümid işığı olmaq əzmini nümayiş etdirdi. Bu görüş yalnız gənc bir qız üçün deyil, xalqımızın gələcəyi üçün də bir simvol idi - lider xalqının hər fərdinə inanır və onların istənilən çətinliyi birlikdə aşacağına əmin olurdu…

Heydər Əliyevin yolunu davam etdirən Prezident İlham Əliyev Azərbaycanın yeni inkişaf mərhələsinin memarı oldu. Dövlət başçısının qətiyyətli siyasəti ölkəmizin yalnız iqtisadi baxımdan deyil, siyasi, hərbi və diplomatik sahələrdə də yüksəlişini təmin etdi.

44 günlük Vətən müharibəsi Azərbaycan xalqının və Prezident İlham Əliyevin dövlət-xalq birliyinin ən parlaq təcəssümü oldu. Bu birlik xalqın gücünü və liderinə inamını nümayiş etdirdi. Qarabağın işğaldan azad edilməsi həm hərbi, həm də diplomatik bir qələbə idi və Azərbaycanın beynəlxalq miqyasda nüfuzunu daha da artırdı.

Prezident İlham Əliyevin uzaqgörən siyasəti nəticəsində Azərbaycan bütün sahələrdə olduğu kimi, ekoloji məsələlərdə də liderliyini təsdiq edib. 2024-cü ildə keçirilən COP29 zirvə toplantısında Azərbaycanın ekoloji problemlərin həllindəki qətiyyətli mövqeyi və iqlim dəyişikliklərinə qarşı qlobal təşəbbüslərdə iştirakını diqqət mərkəzinə gətirdi. Prezident İlham Əliyevin bu sahədə təqdim etdiyi "Yaşıl enerji" strategiyası Azərbaycanın regionda və dünyada ekoloji lider kimi tanınmasını təmin etdi.

Azərbaycanın bərpaolunan enerji mənbələrinə keçidi və qlobal enerji təhlükəsizliyinə töhfələri həm ekoloji, həm də iqtisadi baxımdan ölkəmizin gələcəyini təmin edir. Bu, dövlətin və xalqın birgə fəaliyyətinin nəticəsidir - Heydər Əliyevin qoyduğu təməllərin və İlham Əliyevin həyata keçirdiyi siyasətin mükəmməl sintezidir.

Azərbaycanın əldə etdiyi bütün uğurların əsasında dövlət-xalq birliyi dayanır. Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkədə həmrəylik, inam və qarşılıqlı dəstək mühiti mövcuddur. Xalqın liderinə olan sevgisi və liderin xalqına olan bağlılığı bu modeli misilsiz edir.

Ulu Öndər Heydər Əliyevin söylədiyi kimi: "Xalq dövlətin dayağıdır". Bu gün Azərbaycan xalqı dövlətin dayağı olmaqla yanaşı, həm də onun uğurlarının əsas təminatçısıdır.

Prezident İlham Əliyev Ümummilli Lider Heydər Əliyevin ideyalarına sadiq qalaraq Azərbaycanın müasir dövrün çağırışlarına cavab verən güclü bir dövlətə çevrilməsini təmin edib. Dövlət və xalqın birliyi ilə əldə olunan yüksək uğurlar Azərbaycanın gələcəyini parlaq edir.

Liderlər tarix yaradırlar, lakin yalnız xalqı ilə birlikdə bu tarixi əbədi edə bilirlər. Heydər Əliyev və İlham Əliyev isə bu əbədiliyin memarlarıdır…

**Sevinc ABBASOVA,**
***Naxçıvan Dövlət Universitetinin dosenti,***
***tarix elmləri doktoru***

Azərbaycan.-2024.- 11 dekabr (№ 273).- S.8.